**UOT 398:801.6**
**https://doi.org/10.59849/2218-4783.2024.2.252**

**AYTƏN CƏFƏROVA**

# MƏHƏMMƏD FÜZULİ YARADICILIĞINDA FƏLSƏFİ-ƏXLAQİ GÖRÜŞLƏR

*Füzuli yaradıcılığı əsrlərdir ki, bəşər övladına xas olan bütün meyarlar baxımından tədqiqata cəlb edilir. Bu barədə zaman-zaman bir çox mütəxəssislər təqdirəlayiq fikirlərlə çıxış etmişlər. Dahi şairin yaradıcılığı başdan-başa qədim fəlsəfi düşüncələrlə zəngindir. Əxlaqi, dini, siyasi, ictimai dəyərlər üzərində şeirlər yazan Füzuli yaratdığı əsərlər vasitəsilə dövrünün insanına bu dəyərlərin aliliyini aşılamaq istəmişdir. Füzuli düşüncəsinə görə, sözün aliliyini insan mütləq qəbul etməlidir. Söz Tanrının bəşər övladına bəxş etdiyi ən ali nemətdir ki, ondan ehtiyatla istifadənin yollarını məhz dahi Füzuli təyin edib.*

*Məqalədə dahi şair Məhəmməd Füzuli yaradıcılığında fəlsəfi görüşlər şairin yaradıcılığı əsasında təhlil edilir. Bu görüşlərin müasir günümüzlə əlaqəsi araşdırılır.*

**Açar sözlər:** *Məhəmməd Füzuli, əxlaqi dəyərlər, söz, şeir yaradıcılığı, Azərbaycan.*

**Giriş.** Dahi Azərbaycan şairi Məhəmməd Füzuli öz yaradıcılıq örnəklərini ədəbiyyatımıza bəxş etməklə həm də fəlsəfə sahəsindəki düşüncələrin sərhədlərinin və tədqiqat sahəsinin genişlənməsinə xidmət edib. Hansı yöndən baxsaq, Füzuli yaradıcılığı həmin istiqamətdə olduqca zəngin olan fəlsəfi təfəkkür sərgiləyir. Mütaliə etdikcə bu dahi şəxsiyyətin həmin dövrdə bu qədər geniş təfəkkür sahibi olması, sözün əsl mənasında, insanı heyrətləndirir. Düzdür, biz bu fikri təkcə Füzuliyə deyil, klassiklərimizin, ümumiyyətlə, keçmiş dövrlərin yüksək bədii və fəlsəfi təfəkkür sahibi olan bütün nümayəndələrinə aid edə bilərik və bu, mütləqdir. Bu ona görə mütləqdir ki, həmin dahilərin əsərlərini oxuduqca, təəccüblənməmək mümkün deyildir, ona görə ki, var olduqları ictimai-sosial mühitdə baş verən hadisələrə belə dərin araşdırma nöqteyi-nəzərindən yanaşmaq insandan fövqəltəbii istedad tələb edir. Hələ qalsın ki, yaşadıqları dövr tamamilə inkişafdan kənar və dövrümüzlə müqayisədə tamamilə ibtidai vəziyyətdə olsun. Bəli, bu şəxsiyyətlərin dərin və həm də olduqca çox dərin fəlsəfi təfəkkür sahibləri olmaları Tanrının həmin cəmiyyətə xoş ərməğanı və ən əsası rəhm etməsidir. Əgər hər hansı bir dövrdə və hər hansı bir xalqın, cəmiyyətin dərin düşünən beyni yoxdursa, o cəmiyyət, xalq yenilməyə məhkum olacaqdır. Və çox sevindirici və şükredici məqamdır ki, Tanrı Azərbaycan xalqına da Füzulilər, Nizamilər, Nəsimilər, Xətayilər, Xaqanilər bəxş edərək bu xalqın mənəvi qurtuluşunu təmin etmiş oldu.

**Füzuli yaradıcılığında sözün fəlsəfi-poetik ifadəsi.** Əgər söhbət Füzuli yaradıcılığının fəlsəfi möhtəşəmliyindən gedirsə, bunu təsdiq etmək mütləqdir ki, Füzulinin elə təkcə sözə ehtiyat və qibtə ilə yanaşması onun Tanrıya ünvanlanan təşəkkür və minnətdarlıq dolu şükranıdır. Füzuli sözü ifadə etdikcə və ümumiyyətlə, sözü təfəkküründə var etdikcə, fövqəladə fikirlər ərsəyə gətirib. Sözün qüdrəti, əsrarəngizliyinə ən möhtəşəm dəyəri Füzuli verib. Füzulinin söz dünyası olduqca zəngindir və bu zənginlik onun müxtəlif mövzularda yazdığı qəzəllərində də özünü göstərir. Füzulidə eşq, sevgi, məhəbbət bəşər övladına Tanrının bəxş etdiyi ən ali nemət kimi dəyərləndirilir. Eşq, məhəbbət insanların bir-birilə münasibətinin ən yüksək mərtəbəsidir. Eşqlə insan xoşhal olur, eşqlə şirindil olur, eşqlə sevinir, eşqlə gülür və insan eşqlə kamilləşir. Və kamil eşqin sahibi olan insan da ətrafına nur saçır:

Mənim könlüm sənin eşqinlə aşinadır, bil!

Ayırmaq dostu dostundan dözülməz cəfadır, bil!
Şərabi-eşq ilə sərxoş olanlar gəlmədi huşə,
Bu sirri kimsə bilməz, nəşəsi eşqin bəqadır, bil! [1, s. 125].

Füzulinin nəzərində insanın daxili aləmini, mənəviyyatını ifadə edən söz onun şəxsiyyətinin göstəricisidir. Söz azadlığı da insan üçün ən böyük nemətdir:

Ey Füzuli, nə gözəldir sözü azadəliyin,
Hanı bir sərv bu aləmdə ki, vardır səməri [1, s. 6].

Füzulinin anlamında "yoxdan var olan", xalqa insanın daxili dünyasının Sözünün qədir-qiymətini bilən adam əslində elə öz qədrini də artırmış olur. Üzü pərdəli gözəl bir nigara bənzədilən söz hamıya yox, yalnız onu duyan, dəyərləndirməyi bacaran adamlara öz sehrli üzünü göstərir. Mərifət dənizinin qəvvası olmayanlar heç zaman söz incilərinin sahibinə çevrilə bilməzlər. Sözdə "ölünü diriltmək", cansıza can vermək, insanı əbədi yaşatmaq qüdrəti vardır. Qəzəlin son beytində irəli sürülən fikir aydınca göstərir ki, Füzuli də öz sənət müəllimi Nizami kimi bədii yaradıcılıqda az sözlə dərin məna ifadə etməyə, lakonizmə böyük əhəmiyyət vermişdir.

"Padişahi-mülk" qitəsini oxuyanda adamın yadına müasir Amerika siyasətçilərindən birinin bu sözləri düşür: "Prezidentin hakimiyyəti dörd ildir, qələm isə daim hakimiyyətdədir"... "Hər sözü bir pəhləvan olan" Füzuli sənəti neçə-neçə şahları, xanları, hakimləri, prezidentləri yola salıb, özü isə daim hakimiyyətdədi, milyon-milyon yeni ürəkləri fəth eləməklə məşğuldur:

Hər sözüm bir pəhlivandır kim, bulub təyyədi-həqq,
Əzm qıldıqda tutar təcrid ilə bəhrü bəri.

Qanda kim, əzm etsə, mərsumü məvacib istəməz,
Qansı mülkü tutsa, dəyməz kimsəyə şurü şəri.

Payimal etməz onu asibi-dövri-ruzigar,
Eyləməz təsir ona dövrani-çərxi-çənbəri...

Başqa ölkələri işğal eləyən fatehlərin əzab-əziyyətinə mübtəla olan xalq ona nifrət edirsə, söz sultanının qoşunu ürəklərə sevgi, sevinc duyğuları bəxş edir. Elə buna görə də qəlbində "Məcnundan füzun aşiqlik istedadı" olan Füzuli daim sevilir, sevdalı könüllərdə əbədi yaşayır.

Füzuliyə görə, söz dərin mənalı, yığcam, düşündürücü, sirayətedici olmalı, insanların mənəvi kamilləşməsinə kömək etməlidir. Nəinki Füzulinin bədii əsərləri, həmçinin onun söz, poeziya sənəti haqqında fikirləri, hazırladığı nəzəri-estetik prinsiplər də zamanın sınağından çıxmış, öz dəyərini heç zaman itirməmişdir… [6].

Məlum olduğu qədərincə, Füzulinin ərəb və farsca yazdığı əsərləri ilə yanaşı türkcə yazdığı əsərləri də dərin fəlsəfi təfəkkürü ifadə etmək baxımından diqqətəlayiqdir. Dövrün tələbi nöqteyi-nəzərindən əgər razılaşsaq ki, Füzuli ərəb-farscada yazmaq məcburiyyətində idi, onda türkcə yazılmış əsərlərin ideya-bədii xüsusiyyətindəki köklü məqamlar da sübut edir ki, Füzulinin əlində ixtiyar olsa idi, yaradıcılığını başdan-başa türkcə ilə bəzəyərdi. Lakin hər üç dildə yazdığı əsərlərdəki struktur-semiotik məqamlar təsdiq edir ki, Füzuli öz soy-kökünün əsl mahir bilicisi və mühafizəçisi olub.

Füzuli yaradıcılığı ərəb-fars və türk dillərində yazılmasına rəğmən bütünlükdə qədim türk ideyası üzərində köklənmişdir. Hətta biz bunu onun dini mövzulara həsr etdiyi əsərlər üçün də xarakterik bilirik. Çünki buradakı əsas ideya xüsusiyyətinin kökünə nəzər salsaq,

yenə də milli təfəkkürün təməl rolu oynadığını görə bilərik. Hər bir tövsiyə və nəsihət məqamında Füzuli milli təfəkkürün daşıyıcıları olan paremioloji vahidlərdən ya olduğu kimi istifadə edir, ya da fikirlərinin alt qatında bu örnəkləri təməl olaraq təşkil edir. Və beləliklə də Füzulinin bütün yaradıcılığında, daha çox qəzəllərində milli paremioloji vahidlərin təməl mövqedə işlənməsini müşahidə edirik. Əgər xalq insanın formalaşma prosesindəki natamamlıqları, çatışmazlıqları bəla hesab edərək onu insanın özünə xeyri olan heyvanla müqayisə edir və deyirsə ki, "...Adam var ki, heyvan ondan yaxşıdır", bu paremiyanı Füzuli öz qəzəlinə təməl seçərək belə yazır:

...Mən qaçarsam öz-özümdən, var yeri, üzlətdə çün
Vəhşilərdir həmdəmim, adəm mənə lazım deyil [1, s. 47].

"Göz ürəyin aynasıdır" deyən xalqın ifadəsində gözlərin həm fiziki, həm də mənəvi yanaşma baxımından ürəklə kontaktı haqqında dərin mülahizə yatır. Bəli, ürək sevincli və ya qəmgindirsə, gözlər bunu öz fiziki quruluşunda o an əks edəcək: gözlər kiçilir, ölgünləşir, bəzən maksimum həddə öz hədəqəsindən çıxır. Və yaxud da ki, qəlb, könül sevinərsə, gözlərin işıltısı ətrafa nur saçar. Sevincdən bəzən də gözdən axan yaş dumduru bulaq suyuna bənzəyir. Bu məqamı qəzəlində Füzuli belə təsvir edir:

Yaşlı göz bir güzgüdür, onda könüllər əks edər,
Gözdə yaş artdıqca, qəlbin nuru artar ol qədər [1, s. 82].

"Ürək yanmazsa, gözdən yaş çıxmaz" paremioloji vahidindən Füzuli beyti belə intişar edir:

"Qəlb varsa, əql varsa səndə, gözdən yaş axıt,
Ağlayıb ah çəkməyənlər bir ağacdır bisəmər" [1, s. 82].

"Xızır peyğəmbər kimi yetişdi" xalq ifadəsində də olduğu kimi, Xızır adlı əfsanəvi-dini obraz haqqındakı xalq təfəkküründəki düşüncələri öz yaradıcılığında da qoruyub saxlamağa müvəffəq olan şair bu obrazın dirilik, canlılıq, əbədiyaşarlıq missiyası ilə yükləndiyini klassik aləmə də daşıyır:

Xücəstə Xizrdir abi-həyat içmək üçün,
Zəman-zəman zülümatə qılır güzar qələm [4, s. 89].

Zalım padşahlara, rəiyyətin bir tikəsinə belə göz dikərək onları aciz vəziyyətə salanlara Füzuli ifşası çox kəskindir. İnsanın ruzisini verən Allaha qarşı çıxaraq onu xalqın əlindən alanları şair vəhşi heyvan adlandırır. Hərislik, acgözlük heyvana aid edilsə də, şair söyləyir ki, heyvan da doyanda kənara çəkilir, uzaqlaşır.

"Bütün bu xüsusiyyətləri izah etdikdən sonra, şair oxucuya müraciət edib göstərir ki, başqalarını malına göz tikənlərin, öz süfrəsinin ürək qızartması ilə bəzəmək istəməyənlərin ciyəri yüz parça olan insanlara yazığı gəlməz. Rəhmsiz insanlar ürəyi yanmışlara ürək yandıra bilməz. Bütün bunlardan Füzuli dövlət üçün nəticə çıxarır. Zalım şahları qurd adlandırır. "Qurddan isə çoban olmaz" – deyir" [3, s. 11].

Füzuli dünyası üçün sözün kəramətli, təsirli mövcudluğu Tanrının bəndəsinə ən xoş lütfüdür. Belə ki, gözəl və kəramətli söz sahibinin el içərisində hörmətini heç nə ilə əvəz etmək mümkün deyildir. İnsanın mənəviyyatı, kamilliyinin sübutunu yalnız söz icra edir. Sözlə qəlblər tikilir, gözlər gülür, bəşəriyyət sözün gözəlliyindən riqqətə gəlir, sözlə insan var olur və eləcə də sözlə tikilən evləri, qəlbləri sözlə də yıxmaq olur. Qılıncın yarasını sözün faydası sağaldar. Həm də "Qılıncın yarası sağalar, söz yarası sağalmaz" deyən xalqın təfəkküründən süzülüb gələn sözün ən gözəl tərifinə Füzuli yanaşması, Füzuli rəyi də güclüdür:

Xəlqə ağzın sirrini hərdəm qılır izhar söz,

Ol nə sirdir kim, olur hər ləhzə yoxdan var söz.
Artıran söz qədrini sidq ilə qədrin artırar,
Kim nə miqdar olsa, əhlin eylər ol miqdar söz.

Ver sözə ehya ki, tutduqca səni xabi-əcəl,
Edə hər saət səni ol uyqudan bidar söz.

Bir nigari-ənbərinxətdir könüllər almağa,
Göstərər hərdəm niqabi-qeybdən rüxsar söz

Xazini-gəncineyi-əsrardır, hərdəm çəkər
Rişteyi-izharə min-min gövhəri-əsrar söz.

Olmayan qəvvasi-bəhri-mərifət arif degil
Kim, sədəf tərkibi-təndir, lölöi-şəhvar söz.

Gər çox istərsən, Füzuli, izzətin, az et sözü
Kim, çox olmaqdan qılıbdır çox əzizi xar söz [1, s. 145].

Şifahi yaradıcılıq örnəklərimiz içərisində qədim türkün etnik təfəkkür süzgəcindən günümüzə gəlib çıxan sözün möcüzəvi gücünə hesablanmış çoxlu sayda dəyərli kəlamlar vardır. Bu kəlamların gücü bu gün də öz aktuallığını qoruyub saxlamaqdadır və hər keçən tarixi dövrlərdə də belə olubdur: qılıncın kəsə bilmədiyi mübahisələri, qanlı müharibələri sözün gücü həll edibdir. Sözün sehri və möcüzəvi qüvvəsi çox gizlin sirlərin üstünü açıb, çox gizlin mətləbləri aydınlığa çıxarıbdır. Bu nöqteyi-nəzərdən Füzuli sözün təzahür məkanı olan nitqin mükəmməlliyini, kamilliyini vacib sayaraq Tanrıdan yüksək mövqeyə malik olmağın açarı olan mükəmməl nitqinin daimi olmağını arzu edir və diləyir:

Qəlbimi nurunla açdın, nolar açsan nitqimi,
Verdiyin nemətlər olsun ta ki, dillər əzbəri!
Nitq verdinsə, gözəl söz söyləmək də lütf qıl,
Şeirim ilə zahir olsun gizlin hikmət zivəri!
Lütfün əlası sözün bilməkdədir mənasını,
Həmd qıl, vermiş Füzuli, hər sənə bu gövhəri [2, s. 23].

Füzuli yaradıcılığında olduğu qədər sözün tutduğu mənanın yüksəldiyi mərtəbənin təyinini heç yerdə müşahidə etmək mümkün deyildir. Düzdür, söz haqqında saymaqla bitməyən tariflər mövcuddur. Amma bütün bunlar məhz şifahi sözlü dünyadakı xalq kəlamları – paremiyalardan sonra klassikada mövcud olan Füzuli möhtəşəmliyinə məxsus yaradıcılıqda olduğu qədər yüksək səviyyədə təqdim olunmayıb və bundan sonra da bu barədə Füzuli möhtəşəmliyinə çatan olmaz! Sözə xor baxmaq onun sahibinə, yaradılışa xor baxmaqdır. Hər bir ifadə olunan kəlmə Tanrının bəndəsinə Onun lütfüdür. Ona görə "ver sözə ehya ki, tutduqca səni xabi-əcəl, Edə hər saət səni ol uyqudan bidar söz" deyən Füzuli sözü bu dünya-o dünya arasında körpü səviyyəsində təqdim edir. Yəni olduğumuz dünyada danışılan sözün törətdiyi əməlin yaxşı və ya pis bədəlini haqq dünyasında alacağıq.

Dahi Füzulinin sözün qüdrəti və kəraməti haqqındakı dəyərli fikirləri onu təsdiq edir ki, bu dahi şəxsiyyət qloballaşmanın və sürətli texnoloji inkişafın hökm sürdüyü indiki dövrdə müxtəlif adlarla, amma eyni amala xidmət edən elm sahələrinin təbliğ etdiyi söz möhtəşəmliyinin bahalığını elə öz dövründə çox gözəl anlayıb və xarakterizə edib. Belə nəticə alınır ki,

hər dövrdə, eləcə də Füzuli zamanında sözün qüdrəti özünün ən yüksək mərtəbəsindəymiş. Sadəcə sözün özəlliyini, qüdrət və gücünü görməyi, dərk etməyi bacarmaq lazımdır. Məhz Füzuli kimi! Sözün sirli və ayrılıqda böyük məna kəsb edən elm sahəsi olması Füzulinin çox mükəmməl bildiyi məsələ imiş. Odur ki, dahi Füzuli söz elminin gücünün hər bir dövrdə aktual və dəyərli olduğunu qəbul edərək bunu xalqının gələcəyinə ötürməyi mütləq şəkildə önəmli hesab edib. Sözü bəşəriyyətin gücü hesab edərək onun qədrini, dəyərini bilməyi tövsiyə edən şair müqəddəs kitabımızın da özəyinin sözdən təşkilini, müqəddəs kitabların hamısının, eləcə də Quranın "sözün məhsulu" olduğunu xatırladaraq yazır ki:

Sözün şəni o əndazə böyükdür ki, müəllimlər,
Sözün məhsulu bilmişlər düani, vəhyi, Qurani [3, s. 263].

Füzuli yaradıcılığının bir əsasını da onun bəşəriyyətə, onu yaradan Tanrıya qədirbilənliklə şükr, minnətdarlıq təşkil edir. Və bu qədirbilənlik təkcə klassik ədəbiyyata bağlı deyildir, yəni onun əsərlərindəki tövsiyə, tərbiyə və düz istiqamətləndirmə şifahi yaradıcılıqdan bəhrələnmədir. "Zər qədrini zərgər bilər" deyən xalqın sözünə, təfəkkürünə qüvvət verərək Füzuli də dövrünün insanına öz nemətlərinə görə Tanrıya şükr etməyi, qədirbilənliklə yanaşmağı arzulayır:

Nədir illət ki, heç kəs öz dilinin qədrini bilməz,
Təbiidir ki, təlin qədrini bilməz onun kani [3, s. 263].

Füzuli yaradıcılığı, məlum olduğu kimi, təkcə nəzm deyil, həm də mükəmməl nəsr əsərləri ilə tutumlanıb. Nəsrində də Füzuli nəzm yaradıcılığında olduğu qədər uğurlu mövzular ortaya qoyub. Yanaşma və fikirlər, eləcə də dünya və yaradılış haqqındakı fəlsəfi görüşlər hər iki yaradıcılıq üsulunda bənzərdir, eyni dərəcədədir. Ərəb-fars dillərində yazmasına baxmayaraq Füzuli bədii nəsrin çox uğurlu örnəklərini yaratmağa müvəffəq olmuşdur. Və bədii nəsr nümunələrinin də nəzm örnəkləri kimi uğurlu nəticələnməsinin səbəbi şifahi yaradıcılıq örnəklərinin bu əsərlərə qaynaq-mənbə rolunu oynamasıdır. Nəsihət-dialoq üzərində qurulmuş "Rindü-Zahid" əsərində Füzuli ata və oğul arasında gedən söhbət əsnasında öz dövründə baş verən hadisələri, dünyadakı iki qütbdən – Rindin və Zahidin mövqeyindən icra olunan prosesləri mühakimə edir. Və bu mühakimə zamanı xalq deyim və ifadələrindən ya eyni ilə, olduğu kimi istifadə edir, ya da fikirlərini xalq deyim və ifadələrinin, sözlü yaradıcılıq örnəklərin əsasında formalaşdırır. Ata və oğlu – tərki-dünyalıq, mühafizəkarlıq, dindarlıq və eyş-işrət, həyat, musiqi, gözəllikləri sevmək arasındakı dialoq vasitəsilə Füzuli dövrünün təzadlı ictimaiyyətini ortaq fikrə gələrək qalibiyyət əldə edəcəyinə səsləyir. Rində müxtəlif fəaliyyət sahələri təklif edən Zahidin dilindən şair nəsr kontekstində maraqlı nəzm nümunələri də təqdim edir ki, bu nümunələrdə də xalqın sözlü yaradıcılıq örnəkləri təməl rolunu oynayır. Məsələn, Zahid Rində sənət öyrənib çörək qazanmağı tövsiyə edərkən Rind ona nəzmlə, əsasında-kökündə "Sənətlə qazanılan çörək ilan sümüyündən betərdir" atalar sözü dayanan maraqlı cavab verir:

Ey peşəkar hala ruzi üçün,
Xalqın minnətini çəkməkdən azadsan.
Özünə zəhmət verib çörək yeyirsən,
Afərin! İlanı öldürüb xəzinə əldə edirsən [4, s. 21].

Elmin kəraməti, fövqəltəbiiliyi Füzuli yaradıcılığında olduqca dərin fəlsəfi nöqteyi-nəzərdən təbliğ və təqdim olunur. Hər zamanda, dövrdə nədən alimin maddi məhrumiyyətlər, nadanın isə cah-cəlal içərisində yaşadığı insanları düşündürüb və narahat edib. Bu məsələyə hər zamanda, dövrdə həlledici, tutarlı cavablar gözlənilib. Və müxtəlif səpkili cavablar isə Füzulinin yanaşması qədər qənaətbəxş deyildir:

"Rind dedi:

– Ey Zahid! Cahilin nemətdə olması, alimin çətinlikdə yaşaması qəzə və mehribançılıqdan deyil, bəlkə də onda Allah hikmətinin sirləri vardır. Hərçənd ki, məmləkətin işləri cahilin əlindədir, alimin tədbirilə öz güzəranını əldə etməsi ondan daha asandır. Əgər dünya işlərinin əsasları ağıllıların əlində olsa, onda cahil adamlar istedadın olmaması üzündən çətinliklə onu qəbul edər. Bu hikmət Allah mərhəmətinin ümumiliyinə dəlildir və bu da alimlərin təsəllisinə səbəbdir ki, Allahın nemətindən hamı istifadə edir, hər kəs onun salmış olduğu süfrədən öz ruzisini yeyir:

Dünya dövlətinin daima nadanlara çatması,
Ölkənin nizam və intizamı üçün bir hikmətdir.
Alim öz ağlı ilə cahilə yaxınlaşa bilər,
Amma cahilin Alimə yaxınlaşması zəhmətdir [4, s. 23].

"Səhhət və Mərəz" əsərində də dahi Füzuli qədim etnik düşüncənin izlərini daşıyan xalq yaradıcılığı örnəklərindən dayaq kimi istifadə edib. Füzuli bu əsərdə özünün dövrünə aid mükəmməl tibbi görüşlərə malik olmasını təsdiq edir. Dahi şəxsiyyətin tibbi görüşləri fəlsəfi və ruhi aləmin içərisində təqdim olunur. Obrazların dili vasitəsilə Füzuli tibb və fəlsəfənin ayrılmaz istiqamətlərinin birləşmə prosesini təqdim və təsdiq edir. İnsanın xəstələnməsinin onun ruh halından qaynaqlanan bir vəziyyət olduğunu Füzuli insan orqanlarını obrazlaşdıraraq təqdim edir. Duyğuların heç də insana Allah tərəfindən verilən mücərrəd bir anlayış kimi qəbul etməyən dahi, insanın məhz duyğular vasitəsilə xəstələndiyi kimi duyğular vasitəsilə də sağaldığını, dirçəldiyini sübut edir. Bəli, Füzuli konsepsiyası bu gün öz təsdiqini daha aydın tapmaqdadır. Günümüzdə, yəni XXI əsrdə artıq insanlar duyğu və hisslərə çox böyük önəm və özən göstərməyə başlayıblar. Hər kəs ruh halını sağlam və möhkəm saxlamağı öyrənməyə cəhd edərək uzun ömür qazanmağa çalışır. Xəstəlikləri yaradan dağıdıcı duyğuları yaradıcı duyğularla əvəz etməklə insan uzun və kamil ömür yaşaya bilər. Bu gün artıq psixologiya elminin ən yüksək səviyyəsinə yüksələn bu mülahizələri Füzuli 530 il bundan öncə mükəmməl bədii nəsr örnəyi "Səhhət və Mərəz" vasitəsilə aydınca ifadə edib. İnsan dağıdıcı duyğularına yenilməsə, yaradıcı duyğularla həyatın hər çətinliyinə qalib gələrək mübarizədən üzüağ çıxar. Əsərdə duyğuların insan varlığına təsiri xalq yaradıcılığında prioritet məsələ olan məhz duyğulara təsir etmək məqsədilə formalaşmış lirik növ janrlarındakı mahiyyətdən qaynaqlanır. Belə ki, laylalar vasitəsilə körpə yuxuya gedib, rahatlanır, oxşamalar, əzizləmələr vasitəsilə körpədə özünəinam formalaşdırılır, oyunların köməyilə uşaqda əmək və zəhmətə, vətənsevərliyə sevgi aşılanır, eləcə də bu əsərdə duyğular, hisslər insana təsir edərək onu ya formalaşdıra, kamilləşdirə bilər, ya da məhv edib, dünyadan məhrum edər. Duyğuları da idarə edən ağılı – əqli düzgün istiqamətləndirməyi öyrəndikdən sonra qələbə qazanmaq mümkündür: "Əql ləşkəri Qəm qoşununu məğlub edib, Qəm və Qorxunu tutub əsir etdi ...Mərəz ləqəbli bir amansız var idi. Səbəbsiz yerə hər kəsə ədavət bəslərdi. Ədavət onunla dostlaşdı, ürəyinin dərdini ona söylədi..." [4, s. 69]. Bu əsərdə Füzuli insanın daxili orqanlarının xəstəliklərinin dağıdıcı duyğu və hisslərin: ədavət, kin, qorxu, nifrətin baş qaldırması və güclənməsi sayəsində baş verdiyini maraqlı dialoqlar üzərində təqdim edir.

Fəlsəfi-nəsihətamiz mövqeyi ilə diqqət cəlb edən "Söhbət ül-əsmar" əsərində də ictimai bərabərsizliyə etiraz edən şair dünyanın bu haqsız qanunundan kəskin şikayət edir. Və bu şikayətini də xalq yaradıcılığı ruhunda poetikləşdirərək təqdim edir. Bir-birinə çatışmazlıqlarını söyləyən meyvələr bu üsulla öz üstünlüklərini göstərməyə çalışırlar. Şair meyvələrin bu dialoqu ilə cəmiyyətdəki bərabərsizliyi ifşa edir. Əgər biz bu əsərdə əsərin alt qatında

ictimai bərabərsizlikdən giley, şikayət mövzusunu müşahidə ediriksə, mətnin üst qatında şairin xalq təbabəti ilə bağlı fikir və düşüncələrini də izləyə bilirik. Meyvələrin dialoqu ilə meyvə və tərəvəzlərin insan orqanizmi üçün faydası və zərəri haqqında da məlumat alırıq:

Xişmindən Alu özün itirdi,
Aluçəyə söylədi ki:
– Ey zar!
Fəxr eyləmə, eyləməzmisən ar?
Kim turş, dəxi zəlilsən sən,
Əsmar ara əlilsən sən!
Əklində sənin qamaşı dişlər,
Xoş təblərə rütubət işlər.
İflicəvü küft cümlə azar,
Səni yeyənə olur səzavar [1, s. 264].

Dahi şair, klassik Məhəmməd Füzulinin yaradıcılığında əsas mövzu və yer Allah və onun elçisi olan Peyğəmbər, Onun əshabələri haqqındakı təkcə dini deyil, eləcə də dərin fəlsəfi düşüncələr poetikləşmiş şəkildə təqdim olunur. Həyatının müxtəlif mərhələlərində dünya haqqındakı düşüncələrində fərqli fəlsəfi aspektdən yanaşma da hiss olunur. Füzuli dini nöqteyi-nəzərdən yanaşmalarına daha çox üstünlük versə də, öz mövqeyini də tam şəkildə ortalığa qoymur. Əsərlərini tam şəkildə mütaliə edərkən Füzulinin insani duyğuların – humanizm fəlsəfəsinin hər şeydən üstün olduğu ideyasının tərəfdarı olduğu aydınlaşır. Lakin Füzuli dünyanı necə varsa, elə də qəbul edir. O dünyanı deyil, dünyanı gözəlləşdirən və bir o qədər də çirkinləşdirən insanlığı tənqid edir, onu kamilləşməyə, bəşəriyyətə faydalı olmağa səsləyir. Və bütün bu səsləyişi də dahi şair xalqın öz yaradıcılıq dünyası olan sözlü mədəniyyətinə müraciət edərək həyata keçirir və ya əsərlərini bu sözlü yaradıcılıq örnəklərindəki dərin məna tutumuna əsaslanaraq yaradıb, ərsəyə gətirərək öz nəsihət və arzularını xalqa çatdırır.

## ƏDƏBİYYAT

1. Məhəmməd Füzuli. Əsərləri: 6 cilddə. II cild. Bakı: Şərq-Qərb, 2005, 336 s.
2. Məhəmməd Füzuli. Əsərləri. 6 cilddə. III cild. Bakı: Şərq-Qərb, 2005, 472 s.
3. Məhəmməd Füzuli. Əsərləri. 6 cilddə. IV cild. Bakı: Şərq-Qərb, 2005, 344 s.
4. Məhəmməd Füzuli. Əsərləri. 6 cilddə. V cild. Bakı: Şərq-Qərb, 2005, 224 s.
5. Məhəmməd Füzuli. Əsərləri. 6 cilddə. VI cild. Bakı: Şərq-Qərb, 2005, 384 s.
6. Yusifoğlu R. M.Füzulinin ədəbi-nəzəri görüşləri. "Ədalət" qəz., 2015, 16 dekabr, s. 6.

***AMEA Naxçıvan Bölməsi***
***E-mail: ceferli_ayten@mail.ru***

**Aytan Jafarova**

## PHILOSOPHICAL AND MORAL VIEWS IN THE WORKS OF MUHAMMAD FUZULI

For centuries, Fuzuli's work has been studied according to all the criteria inherent in humanity. Occasionally, many experts have expressed remarkable ideas on this matter. The

work of the brilliant poet is filled with ancient philosophical thoughts. Fuzuli, who wrote poems about moral, religious, political and social values, wanted to instill the primacy of these values in the people of his time through his works. According to Fuzuli, a person must recognize the supremacy of the word. A word is the highest gift given by God to humanity, and the ways of its careful use were determined by the genius of Fuzuli. The article analyzes the philosophical views in the work of the brilliant poet Muhammad Fuzuli based on the poet's work. The connection of these ideas with our modernity is explored.

**Keywords:** *Muhammad Fuzuli, moral values, speech, poetry, Azerbaijan.*

**Айтан Джафарова**

## ФИЛОСОФСКО-НРАВСТВЕННЫЕ ВЗГЛЯДЫ В ТВОРЧЕСТВЕ МУХАММЕДА ФИЗУЛИ

На протяжении веков творчество Физули изучалось по всем критериям, присущим человеческому роду. Время от времени многие эксперты высказывали по этому поводу замечательные идеи. Творчество гениального поэта наполнено античными философскими мыслями. Физули, писавший стихи о моральных, религиозных, политических и социальных ценностях, хотел через свои произведения привить людям своего времени главенство этих ценностей. По мысли Физули, человек должен признать верховенство слова. Слово – высший дар, данный Богом человеческому роду, и способы бережного его использования были определены гением Физули.

В статье на основе творчества поэта анализируются философские взгляды в творчестве гениального поэта Мухаммада Физули. Исследуется связь этих идей с нашей современностью.

**Ключевые слова:** *Мухаммад Физули, нравственные ценности, речь, поэтическое творчество, Азербайджан.*

*(Akademik Muxtar İmanov tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 10.09.2024**
**Son variant 03.10.2024**